№ 2 (15) 2022

## KİTABXANAŞÜNASLIQ

**Sevda Abasqulu qızı Xələfova**
***Tarix üzrə fəlsəfə doktoru, dosent***
***Bakı Dövlət Universiteti, Azərbaycan***
*sqaflanova@mail.ru*
*Orcid id: 0000-0002-7179-7032*

# KİTAB FONDU KİTABXANA SİSTEMİNİN ƏSASI KİMİ

***Xülasə:*** *Kitabxana fondu bir sistem kimi kitabxananın bünövrəsini təşkil edir, ona münasibətdə əsas funksiyanı yerinə yetirir.*

*Hazırda Mirzə Fətəli Axundzadə adına Azərbaycan Milli Kitabxanasının informasiya ehtiyatlarının komplektləşdirilməsi burada sadalanan mənbələr hesabına həyata keçirilir: respublika nəşriyyatları (məcburi nüsxələr), daxili və beynəlxalq kitab mübadiləsi, respublikanın kitab mağazaları, abunə, təşkilatların, müəlliflərin və digər şəxslərin hədiyyələri, müxtəlif səfirliklər, beynəlxalq təşkilatlar, tədqiqatlar institutlar və s.*

*2022-ci il yanvarın 1-nə olan məlumata görə, Milli Kitabxananın fondu 4.630.084 nüsxədir. Bunlardan 2.397.285-i kitab və broşürlər, 2.232.799-u digər materiallardır.*

*Məqalədə kitab fondu konsepsiyasının elmi-praktik problemləri, müasir şəraitdə kitab fondunun formalaşması təhlil edilir.*

***Açar sözlər:*** *kitab fondu, kitabxana fondu, kitab fondunun formalaşması, Azərbaycan Milli Kitabxanası, informasiya resurslarının komplektləşdirilməsi şöbəsi.*

**Sevda Abasgulu gizi Khalafova**

## The book fund as the basis of the library system

***Abstract:*** *The library fund is the foundation of the library as a system, it performs a basic function in relation to it.*

*Currently, the acquisition of information resources of the National Library named after M.F.Akhundzade is carried out at the expense of the following sources: republican publishing houses (mandatory copies), domestic and international book exchange, bookstores of the republic, subscriptions, gifts*





№ 2 (15) 2022

*from organizations, authors and other individuals, various embassies, international organizations, research institutes and others.*

*As of January 1, 2022, the National Library stock is 4.630.084 copies. Of these, 2.397.285 are books and brochures, 2.232.799 are other materials.*

*The article analyzes the scientific and practical problems of the concept of the book fund, the formation of the book fund in modern conditions.*

***Key words:*** *book fund, library fund, formation of the book fund, National Library of Azerbaijan, Department of Acquisition of Information Resources.*

**Севда Абасгулу кызы Халафова**

## Книжный фонд как основа библиотечной системы

***Резюме:*** *Библиотечный фонд – это фундамент библиотеки как системы, он выполняет по отношению к ней базисную функцию.*

*В настоящее время комплектования информационных ресурсов Национальной Библиотеки им. М.Ф.Ахундзаде осуществляется за счет следующих источников: республиканские издательства (обязательные экземпляры), внутригосударственный и международный книгообмен, книжные магазины республики, подписка, дары организаций, авторов и других частных лиц, различные посольства, международные организации, научно-исследовательские институты и прочие.*

*На 1 января 2022 года фонд Национальной Библиотеки составляет 4.630.084 экземпляров. Из них 2.397.285 - книги и брошюры, 2.232.799 – другие материалы.*

*Статья анализирует научно-практические проблемы понятия книжный фонд, формирование книжного фонда в современных условиях.*

***Ключевые слова:*** *книжный фонд, библиотечный фонд, формирование книжного фонда, Национальная библиотека Азербайджана, отдел комплектования информационных ресурсов.*

İnformasiya cəmiyyəti şəraitində Azərbaycanda kitabxana işinin bütün istiqamətlərində yeniliklərin tətbiq olunması, islahatların aparılması, kitabxana-informasiya xidmətinin müasir dövrün tələblərinə uyğunlaşdırılması prosesi uğurla davam edir. İlk növbədə kitabxanaların avtomatlaşdırılması, kitabxana işi fəaliyyətinin kompüterləşdirilməsi, kitabxana fondunun komplektləşdirilməsi, kitabxana-informasiya xidmətinin informasiyalaşdırılması prosesi geniş meydan almağa, yeni iş üsulları və formaları meydana gəlməyə başlamışdır. Kitabxana fondlarında elektron nəşrlər, şəbəkə texnologiyası, elektron sənədlər əhəmiyyətli dərəcədə artmış, ənənəvi kitabxana fondlarını məzmunca zənginləşmiş, kitabxana-informasiya infrastrukturunun inkişafı təmin edilmişdir.

Son zamanlar kitabxanaların inkişafı və onların funksiyalarının genişlənməsi istifadəçilərə göstərilən xidmət növlərindən və resursların tərkibindən asılıdır. İnformasiya texnologiyalarından geniş şəkildə istifadə olunması kitabxana işinin bütün sahələrində əhəmiyyətli dəyişikliklərə gətirib çıxarmışdır. Ona görə də müasir şəraitdə kitabxanaların rolunu yenidən nəzərdən keçirmək, öz funksiyalarını ən səmərəli şəkildə həyata keçirməsi üçün yollar tapmaq, xidmətlərin çeşidini, informasiya resurslarının toplanması və təqdim edilməsi üsullarını genişləndirmək üçün ardıcıl axtarışlar aparılır.

UNESKO-nun "Kitabxana informasiya cəmiyyətinin ürəyidir" tezisini həvəslə qəbul edən kitabxana icması son zamanlar əsas intellektual səylərini kitabxana işinin texnoloji məsələlərinin öyrənilməsinə yönəldir, analoji əsasda təhsil proqramları qurur və inkişaf konsepsiyaları hazırlayırlar. Kitabxanalar bir sıra hallarda daha çox cəmiyyət üzvlərinin informasiya ehtiyaclarını təmin etmək vəzifəsi istisna olmaqla, özünün xüsusi qurumlarına malik olmayan bir vasitə kimi şərh olunur.

İnformasiyanın özü əsas dəyər olur və insanın ona məhdudiyyətsiz çıxışı sənədli kommunikasiya ilə məşğul olan bütün sosial qurumların fəaliyyətinin əsas ideoloji quruluşu (prinsipi) kimi çıxış edir.

Tarixin bütün mərhələlərində kommunikasiya sistemlərinin əsas halqalarından biri kimi kitabxanaların ənənəvi rolu mədəni irsin toplanıb saxlanmasından, qorunmasından və nəsildən-nəslə ötürülməsindən ibarət olmuşdur.

Rus kitabxanaşünas alimi Sergey Basovun fikrincə, kitabxana sosial orqanizm kimi mənəvi həyatdan kənarda, deməli, öz fəaliyyətinin dəyər istiqamətləri seçimindən kənarda mövcud deyil. Ölkə daxilində dəyər sistemi dəyişdikdə, cəmiyyətin bütün sahələrində ideoloji münasibətlərdə düzəlişlər və ya dəyişikliklər baş verir, lakin onlar tamamilə yox ola bilməz [2, s. 26].

Kitabxanalar həmçinin cəmiyyətin formalaşmasında və təkmilləşməsində iştirak edən digər mədəni sistemlərin də dəyərlərini ötürə bilər və həqiqətən də, bunu etməyə borcludur. Ancaq kitabxanaların tarixi inkişaf prossesində məlum olmuşdur ki, kitabxanalar bilavasitə onların qarşısında duran vəzifələrdən, dəyərlər sistemindən uzaqlaşsa, mədəniyyətdə baş verən dəyişikliklərə cavab verə bilməsə, yeniliklə ayaqlaşmaqdan məhrum olsa, bir də görər ki, sosial məqsədi yoxdur və mədəniyyət onu taleyin hökmünə buraxıb [7, s. 72].

Belə bir mürəkkəb şərait kitabxanalara öz vəzifələrini daha dərindən düşünməyi, öz işini ciddi elmi əsaslar üzərində qurmağı tələb edir.

Hər hansı bir insan cəmiyyətinin üzləşdiyi əsas problemləri iki əsas qrupda birləşdirmək olar: birincisi, insanların bilavasitə ehtiyaclarını ödəmək üçün ifadə olunlar, ikincisi, sosial sistemin özünü qoruyub saxlayan problemlər.

Əgər biz kitabxananı fondların formalaşması və oxuculara xidmət kimi iki əsas prosesin məcmusu hesab etsək, o zaman onların hər birində göstərdiyimiz ideologiyaların "mübarizəsini" görəcəyik. Fondun formalaşması sənədlərin daxil edilməsi və xaric edilməsi üçün vahid prosesdir. Fondun





komplektləşdirilməsinə ənənəvi yanaşma belə bir məqsədə əsaslanır ki, fond cəmiyyətin və xidmət olunan oxucuların informasiya ehtiyaclarını əks etdirməlidir.

Fikrimizcə, fond kitabxananın fəaliyyət göstərdiyi cəmiyyətin mədəniyyətinə izomorf, yəni uyğun olmalıdır. Əgər şərti olaraq fondu nüvəyə və qabığa bölsək, onda nüvədə dünya və Azərbaycan mədəniyyəti üçün izomorf sənədlər (bu, əsas dəyərlər səviyyəsidir) öz əksini tapmalıdır. Qabıq hissə isə yerli icmanın mədəniyyətini əks etdirən, o cümlədən konkret istehlakçıların məlumat ehtiyaclarına yönəlmiş sənədləri ehtiva etməlidir.

Kitabxananın kitab fondunun özəyi oxucuya varlığın "əbədi" suallarına cavab axtarmağa kömək etməlidir. Onun formalaşdırılması və oxucuların tələbatına uyğunıaşdırılması kitabxananın ən mühüm vəzifəsidir.

Professor Abuzər Xələfovun fikrincə, kitabxana fondunun formalaşdırılmasının əsas əlamətlərini, xüsusiyyətlərini ümumiləşdirən kitabxana fondu anlayışı, bilavasitə kitabxana-informasiya kütləsinin formalaşması nəzəriyyəsinə əsaslanaraq, olduqca mürəkkəb bir proses olan kitab fondunun formalaşdırılmasının elmi əsaslarını, kitabxana fondunun bütövlüyü, tamlığı prinsiplərini və perspektiv inkişaf istiqamətlərini müəyyənləşdirir [4, s. 9].

Ölkə kitabxanalarının fondlarının formalaşdırılması xalqın sənədli mənbələr əsasında öz dünyəvi mənzərəsini yaratmaq işidir. Bu vəzifəni ictimai maraqlara uyğun olaraq kitabxanaçılar həyata keçirirlər.

Fondların formalaşmasında kitabxanaların fəaliyyətini ümumi şəkildə "memorial ictimai sərvətin" istehsalı adlandırmaq olar. Bu, praktiki olaraq ayrı-ayrı oxucuların istəyindən, sorğusundan, tələbindən asılı deyil.

Fondun formalaşması prosesindən oxuculara xidmət prosesinə keçid zamanı vəziyyət dəyişir. Nəzəri cəhətdən kitabxana xidməti iki növ fəaliyyətin ayrılmaz birliyi kimi təqdim edilə bilər: birincisi, sənədə çıxışın təşkili (sənəd xidmətlərinin göstərilməsi); ikincisi, şəxslərarası və qrup ünsiyyətinin təşkili (birgə sosial-mədəni fəaliyyətlərin həyata keçirilməsi).

Xidmət prosesi daxilən uyğunsuzdur: sənədin xidmət müddəti (sorğu qəbulundan sənədin verilməsinə qədər) sıfıra, sosial-mədəni birgə fəaliyyətin vaxtı (buna əsaslanır yatan şəxslərarası ünsiyyət) isə sonsuzluğa meyl etməlidir. Yalnız sosial-mədəni fəaliyyət insanı tam hüquqlu şəxsiyyətə çevirir.

Kitabxana fondlarının formalaşması və mühafizəsi problemləri kitabxanaçılıqda ən mühüm və mürəkkəb kateqoriyalar sırasında qərarlaşmışdır. İstifadəçilərin informasiya, mədəni və təhsil tələbatlarının ödənilməsi birbaşa kitabxanaların öz fndlarını necə formalaşdırması imkanlarından asılıdır. Kütləvi kitabxanaların fondları öz tərkibinə və məzmununa görə müxtəlifdir. Fondunda bütün bilik sahələrinə aid ədəbiyyat toplanan kitabxana universal kitabxana adlanır.

Kitabxana fondunun təşkili prosesləri öz aralaında bir-biri ilə sıx sıx bağlıdır. Kitabxana fondlarının düzgün təşkili isə kitabxananın oxuculara xidmət

sahəsində işinin keyfiyyətini artırır. İstənilən kitabxananın fondu universal olmalıdır və elmi, tarixi, bədii dəyəri olan sənədləri, eləcə də işgüzar, hüquqi və digər sosial əhəmiyyətli məlumatları özündə ehtiva edir.

Kitabxana fondunun formalaşması prosesi mürəkkəb və daim diqqət tələb edən bir sistemdir. Bu sistemin yaradılması və idarə edilməsi üçün kitabxana özünün bütün maddi və kadr potensialından məqsədyönlü istifadə etməli, sistemin qüsursuz işləməsini təmin etməlidir [4, s. 9].

Kitabxanaların hazırkı inkişafı və onların funksiyalarının genişlənməsi istifadəçilərə göstərilən xidmət növlərindən və resursların tərkibdən asılıdır. İnformasiya texnologiyalarından geniş şəkildə istifadə olunması kitabxana işinin bütün sahələrində əhəmiyyətli dəyişikliklərə gətirib çıxarmışdır. Ona görə də müasir cəmiyyətdə kitabxanaların rolunu yenidən nəzərdən keçirmək, öz funksiyalarını ən səmərəli şəkildə həyata keçirməsi üçün yollar tapmaq, xidmətlərin çeşidini, informasiya resurslarının toplanması və təqdim edilməsi üsullarını genişləndirmək üçün müntəzəm olaraq axtarışlar aparılır.

Kitabxana fondu bir sistem kimi kitabxananın bünövrəsini təşkil edir, ona münasibətdə əsas funksiyanı yerinə yetirir. Bu, o deməkdir ki, fond olmadan kitabxana öz dəstəyini, mövcud olmaq və ona həvalə edilmiş bütün xüsusi funksiyaları sözün əsl mənasında yerinə yetirmək imkanlarını itirir. Fond sayəsində kitabxana özünün bütün sosial funksiyalarını reallaşdırmaq imkanı əldə edir, ondan fəal və səmərəli istifadə edə bilən kitabxana istifadəçiləri çevrəsini yaradır.

Fondda cəmləşən sənədlərin məzmunu və forması bütövlükdə kitabxananın növünü və tipini müəyyən edir. Deməli, bir sosial institut kimi kitabxananın bütün digər komponentlərinin və özünün ayrılmaz bir sistem kimi taleyi kitabxana fondlarının formalaşdırılması problemlərinin nə dərəcədə düzgün həll olunmasından asılıdır. Bu gün kitabxanalara qarşı irəli sürülən tələblər kitabxana fondlarının məzmun keyfiyyətinin köklü şəkildə yenidən nəzərdən keçirilməsini, qəbul edilmiş ənənəvi komplektləşdirmə texnologiyasının dəyişdirilməsini tələb edir.

Buraya daxildir:

- cinsindən, yaşından, milliyyətindən, təhsilindən, sosial vəziyyətindən, siyasi əqidəsindən, dinə münasibətindən asılı olmayaraq bütün vətəndaşların informasiyaya, təhsilə, mədəniyyətə sərbəst yiyələnməsi;
- şəxsiyyətin tələbatlarının yönləndirilməsinə, senzuranın və hər hansı bir məhdudiyyətin olmamasına diqqət yetirilməsi;
- diyarşünaslıq üzrə yerli kitabxana resurslarına çıxışın prioritet əhəmiyyəti;
- kitabxana fondlarının formalaşdırılmasında ənənəvi və ən müasir informasiya texnologiyalarından istifadə;
- geniş çeşidli tərkibə malik fondlara, ənənəvi və müasir informasiya daşıyıcılarında olan sənədlərə çıxışın təmin edilməsi (kitablar, dövri nəşrlər, audio-video sənədlər, elektron sənədlər, CD-ROM, DVD, məlumat bazaları,





şəbəkə resurslarından istifadə imkanı, "səsli kitablar", Brayl əlifbası ilə nəşrlər, qlobal informasiya məkanı, şəbəkə resursları);
- cəmiyyətdə formalaşmış fikir və baxış müxtəlifliyinin kitabxana fondunda əks olunması [6].

Kitabxana fondunun formalaşması olduqca mürəkkəb, dinamik, cəmiyyətdə baş verən hadisələrlə əlaqədar, daim yeniləşən və təkmilləşən bir proses olduğundan, onun həmişə diqqət mərkəzində olmasına və bu işin təşkilinə kitabxananın bütün kadr potensialının cəlb edilməsinə böyük tələbat vardır. Kitabxanaların formalaşdırılması onların qarşısında duran vəzifələrə, kitabxanaların yerləşdiyi ərazinin xüsusiyyətlərinə, iqtisadi inkişaf problemlərinə, oxucu kontingentinin sosial və elmi-mədəni tələblərinə uyğun olaraq aparılmalıdır.

Kitabxana fondlarının formalaşmasına kitabxananın fəaliyyət göstərdiyi ərazidə yaşayan görkəmli ziyalıların, alimlərin, müəllimlərin, həkimlərin müxtəlif sahələr üzrə mütəxəssislərin və fəal oxucuların cəlb edilməsi də olduqca zəruridir [4, s. 9].

Bununla belə, kitabxanaşünas alim Sergey Basovun xəbərdarlıq etdiyi kimi, əgər fond "plüralist", yəni "hər şeydən bir az" qaydası ilə tamamlanarsa və ya ilk növbədə kütləvi oxucunun tələbləri əsasında komplektləşdirilərsə, onda o, nəticədə kitabxana deyil, ən çox tələb olunan kitablar üçün nəzərdə tutulan kitab bazarı kimi formalaşar, yaxud icarə ofisinin əks etdirər. Əlbəttə, belə olan halda istifadəçilərin istəkləri təmin edilə bilər, lakin kitabxana cəmiyyətdə öz missiyasını, öz sosial rolu yerinə yetirə bilməz [3, s. 26].

Hər bir kitabxananın fondu müəyyən qaydalara uyğun şəkildə təşkil edilmiş olmalıdır. Fondun strukturunu bilməklə ondan istifadə etmək daha asan olur.

Universal kitabxanaların fondları ən çox bu hissələr bölünür:

- təyinatına görə: oxu zalı fondu, abonement şöbəsi fondu, uşaq ədəbiyyatı fondu;
- məzmununa görə: yəni bilik sahələrinə görə. Burada oxuculara kitabxana-biblioqrafiya təsnifatı cədvəlləri kömək edir.

Kitabxana fondunun təşkilinə bir sıra əsas proseslər daxildir:

- Komplektləşdimə - kitabxana tərəfindən çap əsərlərinin seçilməsi və planlı şəkildə alınması, əhəmiyyətini itirən nəşrlərin çıxarılması;
- Kitabxana fondunun uçotu – dövlət statistikası və fondun təhlükəsizliyinə nəzarət etmək məqsədi ilə həm fonda daxil olan, həm də fonddan çıxarılan çap əsərlərinin və digər sənədlərin qeydiyyatı;
- Kitabxana fondunun işlənməsi - çap əsərlərinin istifadəçilərə verilməsi üçün hazırlanması;
- Kitabxana fondunun təşkili – çap əsərlərinin kitabxanada yerləşdiriliilib qaydaya salınması. Fondun düzgün təşkili çap əsərlərinin saxlanmasını və sürətli axtarışı təmin edir;

- Kitabxana fondunun yoxlanılması – fondun təhlükəsizliyinə nəzarəti təmin edir.

Kitabxana fondunun təşkili prosesləri öz aralında bir-biri ilə sıx sıx bağlıdır. Kitabxana fondlarının düzgün təşkili isə kitabxananın oxuculara xidmət sahəsində işinin keyfiyyətini artırır.

İstənilən kütləvi kitabxananın fondu universal olmalıdır və elmi, tarixi, bədii dəyəri olan sənədləri, eləcə də işgüzar, hüquqi və digər sosial əhəmiyyətli məlumatları özündə ehtiva edir.

Kitabxana fondunu səmərəli şəkildə komplektləşdirmək üçün burada sadlanan tədbirləri həyata keçirmək lazımdır:

- oxucu və kitab formulyararını təhlil etmək;
- soraq-biblioqrafiya işinin materiallarını təhlil etmək;
- imtina edilmiş ("yox" cavabı verilmiş) kartotekaları təhlil etmək;
- istifadəçi rəylərini təhlil etmək;
- anket sorğusu keçirmək;
- kitab məhsullarının populyarlıq reytinqlərini öyrənmək.

Fondun komplektləşdirilməsi prosesində sənədləri seçərkən burada sadalanan amilləri nəzərə almaq lazımdır:

- sənədin kitabxananın vəzifələrinə və onun oxucularının tələbatlarına uyğunluğu;
- sənədin bədii, elmi, tarixi dəyəri;
- artıq fondda olan nəşrlərə münasibətdə sənədlərin yeniliyi;
- sənədin informasiya və sosial dəyəri (klassiklər, müəllifin məşhurluğu, diyarşünaslıq mövzuları və s.);
- sənədin aktuallığı.

Beləliklə, kitabxana fondunun formalaşması prosesi mürəkkəb və daim diqqət tələb edən bir sistemdir. Bu sistemin yaradılması və idarə edilməsi üçün kitabxana özünün bütün maddi və kadr potensialından məqsədyönlü istifadə etməli, sistemin qüsursuz işləməsini təmin etməlidir [4, s. 9].

Son zamanlar həm dünyada, həm də respublikamızda kitabxana işinin bütün strukturunda yeniliklərlərin tətbiq olunması, islahatlar aparılması, kitabxana-informasiya xidmətinin müasir dövrün tələblərinə uyğunlaşdırılması prosesi başlanmışdır.

İlk növbədə kitabxanaların avtomatlaşdırılması, kitabxana işi fəaliyyətinin kompüterləşdirilməsi, kitabxana fondunun komplektləşdirilməsi, kitabxana-informasiya xidmətinin informasiyalaşdırılması prosesi geniş meydan almağa, yeni iş üsulları və formaları meydana gəlməyə başlamışdır.

Kitabxana fondlarında elektron nəşrlər, şəbəkə texnologiyası, elektron sənədlər əhəmiyyətli dərəcədə artmaqla, ənənəvi kitabxana fondlarını məzmunca zənginləşdirməklə, kitabxana-informasiya infrastrukturunun inkişafını təmin etməyə başladı. Kitabxana fondlarına fiziki cəhətdən ona məxsus olmayan sənədlər axını başladı. Bütün bunlar gələcək kitabxana texnologiyasının innovasiyası kimi formalaşır.



KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal

№ 2 (15) 2022

Kitabxana işinə yeni texnologiyanın tətbiqi, kitabxananın kompüterləşdirilməsi prosesi, kitabxana fondu anlayışı, onun formalaşdırılmasına, sturuktur qruluşuna heç bir dəyişiklik gətirmir, əksinə, fondun tərkibinin elektron vasitələrlə təkmilləşməsinə, məzmunca zənginləşməsinə, oxuculara kitabxana-informasiya xidmətinin yeni mərhələyə qalxmasına səbəb olur. Bütün bunlar bir daha təsdiq edir ki, ənənəvi kitabxanaçılıqdan imtina etmədən, yeniliyin keçmiş ənənələrlə inteqrasiyasını yaratmaq, yeni kitabxana-informasiya texnologiyasını kitabxana işinə tətbiq etmək daha böyük iqtisadi səmərə verməklə bəşəriyyətin əsrlərlə topladığı kitabxanaçılıq təcrübəsini və ənənələrini qoruyub saxlayır.

Amerika filosofu Corc Santayaka hələ XX əsrin əvvəllərində ənənə məsələlərindən danışarkən demişdir: "Tərəqqinin əsasında baş verən dəyişikliklərdən daha çox ənənə durur. Kim ki, keçmişi yadda saxlamağa qadir deyil, onu təkrar etmək məcburiyyətindədir" [4].

Beləliklə, kitabxana fondu – kitabxananın qarşısında duran məqsəd və vəzifələri, sosial funkisiyaları həyata keçirmək, əhaliyə (müxtəlif tip oxuculara) kitabxana-informasiya xidməti göstərmək məqsədi ilə formalaşmış, çap əsərlərinin, müxtəlif növ sənədlərin, elektron daşıyıcıların məqsədyönlü, seçilmiş, sistemləşdirilmiş, qaydaya salınmış, təsnifləşdirilmiş elm, bilik və mərifət xəzinəsidir.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda "kitabxana fondu" anlayışı "ictimai istifadə məqsədilə kitabxananın vəzifələrinə uyğun şəkildə formalaşmış çap əsərləri və digər məlumat daşıyıcılarının məcmusu" kimi izah olunur. Qanunda "Kitabxana fondu" fəslinin 12-ci maddəsində deyilir: "Kitabxana fondunun tərkibinə kitab, jurnal, qəzet, digər çap məhsulları, audiovizual, elektron və digər texniki vasitələrlə oxunan materiallar, əlyazmalar və başqa informasiya daşıyıcıları daxildir. Kitabxana fondları universal, sahəvi, çoxsahəli, ixtisaslaşdırılmış ola bilər" [5].

Digər maddədə isə vurğulanır ki, "Azərbaycan Respublikasının Dövlət Kitabxana Fondu kitabxanalararası əlaqələndirilmiş komplektləşdirmə, qarşılıqlı istifadə, depozitar mühafizə və mübadilə prinsipləri əsasında təşkil edilən, məlumat-axtarış sisteminə malik olan kitabxana fondlarından ibarətdir. Kitabxanalarda olan nadir və qiymətli nəşrlər, xüsusi kolleksiyalar qanunvericilikdə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının milli-mədəni sərvətlər reyestrinə daxil edilir və xüsusi rejimdə mühafizə olunur.... Azərbyacan Respublikası Dövlət Kitabxana Fondu dövlət mülkiyyətidir" [5].

Qanunda kitabxana fondlarının təchizi, milli kitabxana və elmi-mədəni əhəmiyyət kəsb edən kitabxanalara pulsuz məcburi nüsxələr verilməsi məsələləri öz əksini tapmışdır.

Bütün bunları M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının kitab fondunun formalaşması prosesində izləmək mümkündür.

Qeyd edək ki, "Kitabxana işi haqqında" Qanunun 7-ci maddəsində bu qurum belə dəyərləndirilir: "Milli Kitabxana Azərbaycan Respublikasında

kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirən, milli nəşrləri, xarici ölkələrdə nəşr olunmuş Azərbaycan haqqında və Azərbaycan müəlliflərinin əsərlərini, dünya əhəmiyyətli nəşrləri, o cümlədən xarici dillərdə qiymətli və digər məlumat daşıyıcılarını toplayıb mühafizə edən milli mədəniyyət xəzinəsi və dövlət kitabsaxlayıcısıdır" [5].

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli, 30 nömrəli qərarı ilə təsdiq olunan "Azərbaycan Milli Kitabxanasının Əsasnaməsi"ndə də bu tərif təsbit edilmişdir. Əsasnamədə Milli Kitabxananın əsas vəzifələri belə müəyyənləşdirilmişdir:

- kitabxana fondunu milli dildə, dünya əhəmiyyətli nəşrlərlə və digər məlumat daşıyıcıları ilə maksimum komplektləşdirmək, fondun qorunmasını müəyyən olunmuş qaydalara əsasən həyata keçirmək və istifadəsinə nəzarət etmək, sanitar-gigiyena tədbirlərini, bərpa və cildləmə işlərini həyata keçirmək;
- fondun elmi cəhətdən işlənməsini, kataloq və kartoteka sistemində əks olunmasını təmin etmək [2].

"Əsasnamənin "Milli Kitabxana dövlətin milli irsidir" adlı bölməsində qeyd olunur ki, Milli Kitabxananın fondu və əmlakı milli sərvət hesab olunur və xüsusi əhəmiyyətli obyekt kimi dövlət tərəfindən qorunur. Hökumətin təklifi ilə Milli Kitabxana və onun fondları UNESKO-nun ümumdünya mədəni irsi siyahısına daxil edilə bilər.

Bununla yanaşı göstərilir ki, Milli Kitabxana fondunda olan qiymətli nəşrlərin üzə çıxarılması, uçotu, mühafizəsi ilə məşğul olur. Kitabxananın fondunda olan milli mədəniyyət sərvətləri Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısında və mədəniyyət sərvətlərinin mühafizə siyahısında qeydə alınır [2].

Milli Kitabxananın Kitab fondlarının formalaşdırılması şöbəsi 1923-cü ildə kitabxana yarandığı vaxt təşkil edilmişdir. Şöbə 1925-ci ildən Sovet İttifaqının müxtəlif respublikalarındakı kitab palatalarından məcburi nüsxələr almaqla öz fəaliyyətini genişləndirməyə başlamışdır. Hazırda o, İnformasiya resurslarının komplektləşdirilməsi şöbəsi adlanır. Şöbənin strukturuna Ədəbiyyatın ilkin qeydiyyatı bölməsi; Kitabxana fondunun uçotu bölməsi; Milli ədəbiyyatın komplektləşdirilməsi bölməsi və Dövri mətbuat bölməsi daxildir.

Şöbənin vəzifələri fondu yeni ədəbiyyatla və əvvəlki illərin nəşrləri ilə komplektləşdirməkdən, alınan ədəbiyyatın ümumi və fərdi uçotunu aparmaqdan, daxil olmuş ədəbiyyatı operativ olaraq qısa biblioqrafik yazı şəklində elektron kataloq üzrə məlumat bazasına daxil edərək istifadəçilərin nəzərinə çatdırmaqdan, kitabxana saytının "Yeni ədəbiyyat" rubrikasında təzə daxil olan informasiya resursları (kitablar, qəzetlər, jurnallar və s.) haqqında məlumat verməkdən, "Yeni kitablar" sərgi zalını hər həftə yeni ədəbiyyatla təmin etməkdən ibarətdir.

Komplektləşdirmə müxtəlif mənbələr vasitəsilə həyata keçirilir. Komplektləşdirmə mənbələrinə respublika nəşriyyatları (məcburi nüsxələr), Beynəlxalq və ölkədaxili kitab mübadiləsi, abunələr, ayrı-ayrı səfirliklərin,





təşkilatların, müəlliflərin və başqa şəxslərin hədiyyələri, kitab ticarəti ilə məşğul olan təşkilatlar (kitab mağazaları, Kitabxana Kollektoru və s.), elmi-tədqiqat institutları, eləcə də digər müəssisələr daxildir [5].

Milli Kitabxananın Kitab fondlarının formalaşdırılması şöbəsi 1923-cü ildə kitabxana yarandığı vaxt təşkil edilmişdir. Şöbə 1925-ci ildən Sovet İttifaqının müxtəlif respublikalarındakı kitab palatalarından məcburi nüsxələr almaqla öz fəaliyyətini genişləndirməyə başlamışdır. Hazırda o, İnformasiya resurslarının komplektləşdirilməsi şöbəsi adlanır. Şöbənin strukturuna Ədəbiyyatın ilkin qeydiyyatı bölməsi; Kitabxana fondunun uçotu bölməsi; Milli ədəbiyyatın komplektləşdirilməsi bölməsi və Dövri mətbuat bölməsi daxildir.

Ümumi fondun və Azərbaycan ədəbiyyatının arxivi fondunun tamamlanması məqsədilə çatışmayan ədəbiyyat müxtəlif kitabxanalardan, Azərbaycan MEA-nın Əlyazmalar İnstitutundan və digər təşkilatlardan əldə edilir.

Milli Kitabxana 1994-cü ildən Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komisiyyasından elmlər doktorluğu və fəlsəfə doktorluğu dissertasiyalarını, habelə onların avtoreferatlarını alır.

Azərbaycan Respublikasının Prezidentinin 12 yanvar 2004-cü il tarixli 56 saylı Sərəncamı ilə klassiklərin latın əlifbasında çap olunan və kitabxanaya hədiyyə edilən kitabları ehtiyat fondu vasitəsilə komplektləşdirir.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinə əsasən dövlət və qeyri-dövlət nəşriyyatları, nəşriyyat fəaliyyəti ilə məşğul olan poliqrafiya müəssisələri və digər hüquqi şəxslər tərəfindən buraxılan çap məhsullarından 4 pulsuz məcburi nüsxə, respublikada nəşr olunan bütün qəzet və jurnallardan isə 2 pulsuz məcburi nüsxə Milli Kitabxanaya göndərilməlidir.

2021-ci ildə Milli Kitabxananın fonduna müxtəlif mənbələrdən 20.206 nüsxə ədəbiyyat daxil olmuşdur ki, onlardan 10.819 nüsxəsi Azərbaycan, 9.387 nüsxəsi isə digər dillərdədir [5].

Əgər 2014-cü ilin yanvar ayının 1-nə olan məlumata görə Milli Kitabxananın fondu 4.560.301 nüsxədən ibarət olmuşdusa, 2022-ci il yanvarın 1-də fonddakı ədəbiyyat 4.630.084 nüsxə təşkil etmişdir. Onlardan 2.397.285 nüsxəsi kitab və kitabçalar, 2.232.799 nüsxəsi isə digər sənədlərdir. Dövri mətbuat bölməsinə hər il Azərbaycan, rus və başqa dillərdə təxminən 700 adda dövri nəşr daxil olur.

Təkcə 1947-ci ildən fəaliyyət göstərən Azərbaycan ədəbiyyatının arxivi şöbəsində 1831-ci ildən bu günə qədər nəşr olunan, bütün elm sahələri üzrə kitabxanaya daxil olan kitablardan bir nüsxə olmaqla təxminən 107 min şap əsəri vardır Burada 1875-1928-ci illərdə nəşr edilmiş 43 adda qəzet, 1906-cı ildən bu günə qədər çıxmış 475 addan çox Azərbaycan dilində və 33 adda rus dilində jurnal, 1174 nüsxə elmi əsərlər, 2031 ədəd mikrofilm (kitab, jurnal və qəzet) qorunub saxlanılır [5].

2021-ci ildə Milli Kitabxanada tammətnli elektron resursların yaradılması işinə də ciddi diqqət yetirilmişdir. Pandemiya dövrünün yaratdığı maneələrə baxmayaraq kitabxananın əməkdaşları robot skanerlər, portativ skanerlər və rəqəmsal fotoaparatlar vasitəsi ilə çəkilmiş və qrafik proqramlarda işlənmiş 48.814 tammətnli elektron resurs hazırlamışlar. Bu elektron resurslar 6.486 tammətnli e-kitabı, 11.531 tammətnli e-dövri-mətbuatı, 639 tammətnli e-dissertasiyanı və 30.158 tammətnli analitik biblioqrafik resursu əhatə edir. Hazırda kitabxananın elektron bazasında cəmi 1.377.658 elektron resurs mövcuddur. Bundan başqa, həmin dövrdə Milli Kitabxanada 25 adda elektron məlumat bazası, 92 adda elektron virtual sərgi hazırlanaraq onlayn rejimdə istifadəçilərə təqdim olunmuşdur [5].

İl ərzində Bakı şəhərindəki kitabxanalara, rayon kitabxanalarına, digər müəssisə və təşkilatlara Milli Kitabxananın Ölkədaxili Kitab Mübadiləsi fondundan 13.572 nüsxə kitab və jurnal göndərilmişdir. Eyni zamanda Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə təqdim etmək üçün dünyanın milli kitabxanalarına, səfirliklərə, universitetlərə tariximizə, mədəniyyətimizə, iqtisadiyyatımıza, daxili və xarici siyasətimizə, Qarabağ məsələsinə və digər mühüm sahələrə dair 1.787 nüsxə ədəbiyyat göndərilmişdir. Milli Kitabxanaya isə xarici ölkə kitabxanalarından 995 nüsxə ədəbiyyat daxil olmuşdur [5].

Pandemiya şəraiti ilə əlaqədar kitabxananın oxucular üçün bağlanması səbəbindən istifadəçilərə kitabxana-informasiya xidmətini virtual rejimdə təqdim etmək üçün yaradılan “Onlayn xidmətlər” pəncərəsi (“Biblioqrafik sorğu”, “Sənədlərin sifarişi və elektron çatdırılması”, “Metodiki xidmət”, “Virtual sərgi”) 2021-ci ildə də aktiv olmuşdur. “Sənədlərin sifarişi və elektron çatdırılması” bölməsi vasitəsilə 147.219 istifadəçiyə 170.575 resurs göndərilmişdir. Bir il ərzində Milli Kitabxananın saytına (millikitabxana.az) daxil olanların sayı 7.500.523 nəfər olmuşdur [5].

Milli Kitabxananın təcrübəsindən göründüyü kimi, kitabxana fondunun həm nüvə (özək), həm də "mükəmməl repertuar" növlərinin formalaşmasında oxucu sorğuları və tələbatları mühüm amildir. Oxucu tələbatının öyrənilməsi, elmi ümumiləşdirmələr aparılması, fonda alınacaq çap əsərlərinin və audiovizual materialların, elektron daşıyıcıların müəyyənləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Hər şeydən əvvəl, oxucu tələbatını öyrənmək üçün xüsusi araşdırmalar aparılmalı, nəzəri cəhətdən əsaslandırılmalıdır.

Deməli, nüvə (özək) hər bir kitabxana fondunun əsas tərkib hissəsidir. Nüvə (özək) kitabxananın ən zəruri, ən unikal tərkib hissəsi olduğundan, burada kitabxananın tipinə və növünə münasib ən qiymətli bəşəri elmi nailiyyətləri əks etdirən təbiət, texniki, humanitar ədəbiyyat və incəsənətə dair biliklərin əsası olan kitablar, sənədlər, elektron vasitələr və s. toplanmalı qorunub saxlanmalıdır. Milli kitabxanalarda fondun nüvə tərkibi üçün demək olar ki, bütün çap əsərlərinin seçilib toplanması zəruridir. Sahəvi kitabxanalarda isə sahəvi ədəbiyyatın toplanması ön plana çəkilməlidir.





Kitabxanaların komplektləşdirilməsi zamanı istifadə edilən müxtəlif forma və üsullar oxucuların tələbatının ödənilməsi prinsipinə xidmət etməlidir. Məhz bu prinsiplər kitabxana işində baş verən təzahürlərin vəhdətini təmin edir.

Beləliklə, kitabxana fondunu kitabxananın qarşısında duran məqsəd və vəzifələri, sosial funkisiyaları həyata keçirmək, müxtəlif oxucu qruplarına kitabxana-informasiya xidməti göstərmək məqsədi ilə formalaşmış, çap əsərlərinin, müxtəlif növ sənədlərin, elektron daşıyıcıların məqsədyönlü, seçilmiş, sistemləşdirilmiş, qaydaya salınmış, təsnifləşdirilmiş elm və bilik xəzinəsi kimi dəyərləndərmək olar.

## ƏDƏBİYYAT

1. *Azərbaycan Milli Kitabxanası (2022) https://www.millikitabxana.az/about-us/structures/structure*
2. *Azərbaycan Milli Kitabxanasının Əsasnaməsi: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli, 30 nömrəli qərarı ilə təsdiq edilmişdir / https://e-qanun.az/framework/865*
3. *Басов, С. Библиотека в контексте цивилизации и культуры // Библиотековедение: научно-практический рецензируемый журнал (Российская государственная библиотека). - Москва, 2010, № 1, с.25-32.*
4. *Xələfov, A. Kitabxana fondu ümumbəşəri sərvətin məcmusudur // Kitabxanaşüaslıq və informasiya: Elmi-nəzəri və təcrübü jurnal. - Bakı, 2011, №1, № 2 (5), s.7-16.*
5. *Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu: Bakı şəhəri, 29 dekabr 1998-ci il, № 611-IQ / https://e-qanun.az/framework/5041#_edn5*
6. *Некоторые аспекты формирования библиотечного фонда: методическая консультация / Ом. гос. обл. науч. б-ка им. А. С. Пушкина; методический отдел; сост. В.Н.Саваровская, Ю.Ю.Акимова – Омск, 2016. – 27 с. https://omsklib.ru/files/news/our_izdania/metod-konsyltacii/1.pdf*
7. *Шира Д.Ж. Введение в библиотековедение. Москва, 1983. - 180 с.*